**Azərbaycan Respublikası**
**Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurası**

# QƏRAR № 8

Bakı şəhəri, "26" 09 2017-ci il

Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurası sədrinin səlahiyyətlərini müvəqqəti icra edən Rasim Vaqif oğlu Quliyevin sədrliyi, Şura üzvlərinin və şikayətçi Abbasov Bəylər Qiyas oğlunun iştirakı ilə, fiziki şəxs Bəylər Qiyas oğlu Abbasovun (VÖEN-1600168472) Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasına ünvanlanmış müraciətinə baxaraq

**M Ü Ə Y Y Ə N   E T D İ:**

Araşdırma zamanı müəyyən edilmişdir ki, fiziki şəxs Abbasov Bəylər Qiyas oğlu Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasına müraciət edərək Bakı Apellyasiya Məhkəməsinin 15.09.2016-cı il tarixli, 2-1(103)-1501/2016 nömrəli qərarının icra olunmasını tələb etmişdir.

Həmin qərara əsasən, məhkəmənin hüquqi mövqeyi nəzərə alınmaqla Abbasov Bəylər Qiyas oğluna məxsus 0,25 ha torpaq sahəsində inşa edilən 245 $m^2$ ölçüdə qeyri-yaşayış sahəsinin eskiz-layihəsi üzrə tikinti-yenidənqurma işlərinin aparılmasının sənədləşdirilməsi Bakı Şəhər İcra Hakimiyyətinin Memarlıq və Şəhərsalma Baş İdarəsi Şəhər Ərazisinin Tikinti-Planlaşdırma İdarəsinə həvalə edilmişdir.

Memarlıq və Şəhərsalma Baş İdarəsi tərəfindən Bakı Apellyasiya Məhkəməsinin 15.09.2016-cı il tarixli, 2-1(103)-1501/2016 nömrəli qərarından kassasiya şikayəti verilmiş, lakin Ali Məhkəmənin 10.05.2017-ci il tarixli, 2-1(102)-978/2017 nömrəli qərarı ilə şikayət təmin edilməmiş, kassasiya şikayətinin qəbulundan imtina edilmişdir.

Təqdim olunan sənədlər araşdırılmış və müəyyən edilmişdir ki, Bakı Apellyasiya Məhkəməsinin 15.09.2016-cı il tarixli, 2-1(103)-1501/2016 nömrəli qərarı qanuni qüvvəsini aldığına görə fiziki şəxs Abbasov Bəylər Qiyas oğlu BŞİH-nin Apellyasiya Şurasına etdiyi müraciət müsbət həll edilməli, məhkəmə qərarı icra olunaraq "Arxin-M LTD" MMC tərəfindən tərtib edilmiş iddiaçının mülkiyyətində olan 0,25 ha torpaq sahəsində tikintisi planlaşdırılan istehsalat, xidmət və anbar binasının eskiz həlli Memarlıq və Şəhərsalma Baş İdarəsi tərəfindən razılaşdırılmalıdır.

Azərbaycan Respublikası FHN TTNDA "AZƏRDÖVLƏTLAYİHƏ" Dövlət Baş Layihə İnstitutunun 21.07.2017-ci il tarixli, 37/A-00198 nömrəli məktubu ilə fiziki şəxs Bəylər Abbasovla bağlanmış müqaviləyə əsasən, Suraxanı rayonu, Zığ qəsəbəsi, Zığ-Suraxanı yolu 1-ci km, 28 ünvanında istehsalat, xidmət və anbar binası üçün şəhərsalma əsaslandırılması sənədləri hazırlanmışdır.

Yuxarıda göstərilənlərə əsasən, Azərbaycan Respublikası Prezidentinin 762 nömrəli, 03.02.2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyəti orqanlarının Apellyasiya Şuraları haqqında Nümunəvi Əsasnamə"nin 7.3.1-ci bəndini rəhbər tutaraq və Apellyasiya Şurası üzvlərinin yekdil rəyini nəzərə alaraq

**Q Ə R A R A   A L I N D I:**

1. Fiziki şəxs Abbasov Bəylər Qiyas oğlunun Bakı Apellyasiya Məhkəməsinin 15.09.2016-cı il tarixli, 2-1(103)-1501/2016 nömrəli qərarının icra olunması barədə şikayəti təmin edilsin.

2. Qüvvədə olan məhkəmə qərarlarına əsasən, fiziki şəxs Abbasov Bəylər Qiyas oğluna məxsus 0,25 ha torpaq sahəsində Azərbaycan Respublikası Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyin "AZƏRDÖVLƏTLAYİHƏ" Dövlət Baş Layihə İnstitutu tərəfindən hazırlanmış şəhərsalma əsaslandırılması sənədlərinə uyğun olaraq, qeyri-yaşayış sahəsinin eskiz-layihəsi üzrə tikinti-yenidənqurma işlərinin sənədləşdirilməsinin təmin edilməsi Bakı Şəhər İcra Hakimiyyətinin Memarlıq və Şəhərsalma Baş İdarəsinə həvalə edilsin.

3. Bakı Şəhər İcra Hakimiyyətinin Apellyasiya Şurasının Katibliyi bu qərarın surətini Bakı Şəhər İcra Hakimiyyəti Memarlıq və Şəhərsalma Baş İdarəsinə və Bakı şəhəri, Nizami rayonu, Özbəkistan küçəsi 17, mənzil 31-də yaşayan fiziki şəxs Abbasov Bəylər Qiyas oğluna göndərilməsini təmin etsin.

**Bakı Şəhər İcra Hakimiyyətinin**
**Apellyasiya Şurası sədrinin**
**səlahiyyətlərini icra edən** **Rasim Quliyev**